Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

**5-ci istiqamət: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan həm hərbi, həm də iqtisadi müstəvidə sürətlə tənəzzülə gedir...

**Cəbhədə davam edən son döyüşlər fonunda Azərbaycan ordusunun Ermənistanla müqayisədə kifayət qədər ciddi üstünlüyə malik olduğu bir daha təsdiqləndi. Bunu düşmən özü də açıq şəkildə etiraf edir. Erməni mediası artıq bu gedişlə Azərbaycanın sərt zərbələrinə qarşı müqavimətin daha çətin olacağını yazır.**

### Düşmən təşviş içindədir...

Ordumuzun sərt hücumu fonunda düşmənin müqavimət imkanları tam tükənməkdədir. Ermənistanın "Lragir" nəşri yazır ki, itirilən hərbi texnikalar Türkiyə faktoru ilə izah edilsə də vəziyyət fərqlidir. 2 erməni Su-25 təyyarəsinin dağa çırpılaraq məhv olması fonunda nəşr yazır: "Bu birləşmiş hava hücumundan müdafiə sistemi erməni tərəfini müstəqillikdən məhrum etməyibsə, müqaviləyə əsasən, "Rusiya Silahlı Qüvvələrinin hava-kosmik qoşunlarının nüvə silahının tətbiqinə qədər imkanları"ndan istifadə etmək olardısa, türk qırıcısı Ermənistan ərazisində necə təyyarə vurur? Deməli, vəziyyət fərqlidir. Təyyarələr ya həqiqətən Azərbaycanın dediyi kimi dağlara çırpılıb, ya da başqa səbəblər var. Öz ərazisində olsa belə, KTMT-nin üzv ölkəsinə zərbə vura biləcək məsafədə yerləşdikdə birləşmiş HHM sistemi işə düşməli idi. Bu gün biz məntiqi sual səsləndiririk: Ermənistan Müdafiə Nazirliyi həmin vaxt düzgün açıqlama verib, yoxsa Rusiyanın idarəetməni praktik şəkildə yox, kağız üzərində həyata keçirəcəyini və kimdən müdafiə olunmaq, kimdən müdafiə olunmamaq lazım olduğuna müstəqil qərar verəcəyini iddia edənlər haqlıdır?" Amma məsələ təkcə bunlarla yekunlaşmır.

Məlumdur ki, döyüş əməliyyatlarının gedişində Ermənistan ordusunun S-300 hava hücumundan müdafiə sistemlərinin Xankəndidən şimalda yerləşən mövqe rayonları Azərbaycan ordusunun atəşi və zərbələri altına düşüb. Bu haqda Azərbaycan Müdafiə Nazirliyinin daha əvvəl yaydığı məlumatı Rusiya mənbələri də təsdiqləyir. "Avia.pro" portalı qeyd edir ki, bundan əvvəl Azərbaycan Müdafiə Nazirliyi kamikadze-dronun S-300 kompleksinin buraxılış qurğusuna zərbə endirdiyinə dair videokadrları paylaşıb. Lakin daha sonra məlum olub ki, Azərbaycan daha bir S-300 kompleksinə hücum edib. Həmin kompleks Xankəndindən şimalda yerləşir və həmin rayon Azərbaycan ordusunun uzaqvuran artilleriya-raket sistemlərinin atəşi altındadır. Xankəndidən şimalda erməni ordusunun S-300 sistemlərinin mövqe rayonu yerləşir və orada kompleksin radiolokasiya qurğusu, bir neçə mobil raket buraxılış qurğusu yerləşir. Bundan əlavə, erməni ordusunun "Kruq" zenit-raket kompleksinin mövqe rayonları da orada yerləşir və istisna deyil ki, həmin qurğu da atəşə tutulur. Həmin mənbə onu da yazır ki, Azərbaycan ordusu Ermənistanın silahlanmasında yer alan ən müasir Rusiya radioelektron mübarizə sistemini də sıradan çıxarıb. Belə ki, erməni ordusunun mövqelərini qoruyan "Repellent" radioelektron mübarizə sistemi Azərbaycan ordusunun kamikadze-dronu tərəfindən sıradan çıxarılıb. Rusiyanın "NTS-REB" səhmdar cəmiyyətinin istehsal etdiyi "Repellent" kiçik PUA-ların siqnallarını pozmaq üçün nəzərdə tutulmuşdu, Azərbaycanın dron-kamikadzesi də bu sinifdəndir. Lakin naməlum səbəbdən bu sistem Azərbaycan kamikadze-dronunu nəinki aşkar edə bilməyib, üstəlik, həmin dron onun özünü məhv edib. Ehtimal edilir ki, kamikadze-dronu Azərbaycanın radioelektron mübarizə sistemi qoruyub və məhz bu səbəbdən "Repellent" onu aşkar edə və qarşıya qoyulan vəzifəni yerinə yetirə bilməyib.

### Ermənistanın müqaviməti tükənir…

Ermənistandan fərqli olaraq, Azərbaycan ordusu bu gün ən müasir silahla, hərbi texnika və müdafiə təyinatlı qurğularla tam təchiz edilib. Ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olduğunu yeni döyüş əməliyyatlarında qazanılan hərbi uğurlar da aydın surətdə göstərir. Hazırda Azərbaycan ən müasir silahları almaqla yanaşı, onların bir çoxunu özü istehsal edir. Məhz bu durumda Ermənistan yeni döyüş əməliyyatlarının gedişində Azərbaycan Ordusunun gücünü və qüdrətini yaxşı bilir. Bu halda işğal altındakı torpaqlarımızın bütövlükdə qaytarılacağı, Ermənistanın buna məcbur olacağı gün yaxındadır. Hazırda davam edən əməliyyatlar göstərir ki, Azərbaycan öz torpaqlarını düşmən tapdağından azad etməyə qadir ölkədir və proseslər də məhz bu istiqamətdə gedir.

Digər tərəfdən, Azərbaycanın savaşı davam etdirmək imkanları olduğu halda Ermənistan bundan məhrumdur. Bunu millət vəkili, iqtisadçı ekspert Vüqar Bayramov da xüsusi olaraq vurğulayır. O qeyd edir ki, əslində, Ermənistan yalnız ordusu ilə deyil, iqtisadiyyat baxımından da Azərbaycana uduzur: "Əvvəlki dövrlərdə də Ermənistan iqtisadiyyatını Azərbaycanla müqayisə etmək doğru olmaz. Ermənistan regionun ən zəif iqtisadiyyatına malikdir. Azərbaycan isə əksinə, bölgədə ən güclü iqtisadiyyata malikdir". O bildirib ki, Ermənistan təxribatından sonra iqtisadiyyatının daha da zəifləməsi müşahidə olunur: "Ermənistanın milli valyutası apardığı təxribatlardan sonra dəyərini itirməyə başlayıb. Baş verənlərin fonunda Ermənistan dramı - milli valyutasının dəyərsizləşməsi davam edir. Təxribat davam etdikcə və onlar işğal olunmuş torpaqlarımızdan çıxmadıqca, Ermənistan milli məzənnəsində azalmalar müşahidə edəcəyik. Eyni zamanda, Ermənistan pandemiyadan əvvəlki dövrdə də zəif iqtisadiyyata malik idi. Rəsmi statistikaya əsasən, Ermənistanda əhalinin 25 faizi işsizdir, gənclər arasında işsizlik səviyyəsi daha yüksəkdir. Düşmən ölkənin öz rəsmi statistikasında ölkədə hər beş nəfərdən biri yoxsul hesab olunur. Amma beynəlxalq hesabatlar Ermənistanda hər üç nəfərdən birinin yoxsul olduğunu göstərir". Ekspert bildirir ki, həm yoxsulluq, həm də işsizlik səviyyəsi Ermənistanda kifayət qədərdir, nəticə etibarı ilə bu da Ermənistan iqtisadiyyatının mövcud vəziyyətini xarakterizə edən əsas göstəricilərdən biridir. Makroiqtisadi göstəricilərdə, o cümlədən ümumi daxili məhsulda da azalmalar var. Ermənistan təxribatı iqtisadiyyatının daha da zəifləməsinə və təbii ki, diktatura rejiminin çökməsinə gətirib çıxaracaq. Çünki iqtisadiyyat zəifləyir. Paşinyan meydanda verdiyi sözlərə əməl edə bilmir, sosial baxımdan gərginlik güclənir. Mövcud iqtisadi potensialla Ermənistan, təbii ki, uzunmüddətli dövrdə müharibə aparmaq gücündə deyil. Faktiki olaraq, Azərbaycan ordusunun qazandığı qələbə Ermənistan iqtisadiyyatına təsirsiz ötüşməyib. Bu baxımdan Ermənistanın son təxribatı, nəinki Ermənistan ordusu üçün, həm də iqtisadiyyatı üçün kifayət qədər ciddi və acınacaqlı nəticələr vəd edir".

### Düşmən ölkənin iqtisadiyyatı tam mənada çökür…

Onu da qeyd edək ki, təxmini hesablamalara görə, son günlər məhv edilmiş erməni texnikalarının dəyəri artıq 1 milyard dollardan artıqdır. Eyni zamanda gündəlik döyüş əməliyyatlarını aparmaq Ermənistana milyonlarla dollara başa gəlir. Bu fonda işğalçı ölkənin müharibəni davam etdirmək üçün iqtisadi gücü tükənir. Həm də nəzərə almaq lazımdır ki, iqtisadi cəhətdən 3 dəfə Azərbaycandan kiçik olan Ermənistanın hərbi büdcəsi cəmi 658 milyon dollardır. Azərbaycan ordusunun hərbi büdcəsi isə 2.3 mlrd dollar, yəni 4 dəfəyə yaxın böyükdür. Bütün bunlar döyüşdə öz sözünü deyir. Savaşın davamı üçün Azərbaycan lazımı güc və ehtiyatlara malikdir. Məsələn, Azərbaycan iqtisadiyyatının ehtiyatları kifayət qədər böyükdür və strateji valyuta ehtiyatları 52 milyard dollara yaxındır. Halbuki, Ermənistanda bu rəqəm cəmi 2.6 milyard dollar təşkil edir. Burada nəzərə almaq lazımdır ki, pandemiya da Ermənistan iqtisadiyyatına ciddi zərbə vurub. Elə Qarabağda döyüşlər başlayan kimi erməni dramının devalvasiyaya uğraması da iqtisadi vəziyyətin çox gərgin olduğunu deməyə əsas verir. Digər tərəfdən, Ermənistan iqtisadiyyatının əsas gəlir mənbəyi dağ-mədən sənayesidir. Onlar dağ-mədən sənayesi ilə həm Azərbaycanın işğal olunmuş ərazilərindən, həm də dövlət sərhədinə yaxın Ermənistan ərazilərindən hasil edilən məmulatlar hesabına xeyli gəlir əldə edir. Azərbaycanın apardığı uğurlu əməliyyatlar nəticəsində hər iki ərazidə hasilat dayanıb ki, bu da Ermənistanı əsas gəlir mənbəyindən məhrum edir. Beləliklə, Ermənistan hökuməti nə hərbi, nə də iqtisadi cəhətdən Azərbaycanla müharibə aparmaq gücündədir. Təbii ki, bütün bunlar Qarabağ münaqişəsinin, hərbi əməliyyatların gedişinə təsirsiz ötüşmür.

Azərbaycan Müdafiə Nazirliyinin son məlumatlarından biri də qeyd edilənləri təsdiq edir. Burada qeyd edilir ki, Azərbaycan ordusunun bölmələrinin hücumlarının təzyiqləri altında Ermənistan hərbi birləşmələri bütün cəbhə boyu ağır itkilər verir: "Məlum olub ki, Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən erməni hərbi birləşmələri öz bölmələrinin maddi-texniki təminatında ciddi çətinliklərlə üzləşir. Ermənistanın hərbi komandanlığını narahat edən məqam odur ki, bölmələrimizin hücumlarına məruz qalmaqdan qorxan arxa cəbhə hərbi qulluqçuları döyüş sursatı və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina edirlər". Bunlar da, öz növbəsində, hərbi əməliyyatların nəticələrinə birbaşa təsir edir. Bu halda Ermənistan ilk növbədə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının prosesə müdaxilə etməsinə nail olmaq istəyir. Lakin qeyd edilən istiqamətdə cəhdlər iflasla nəticələnib. Bu səbəbdən yaxın tezlikdə Azərbaycanın güc yolu ilə istəyinə nail olacağı şübhəsizdir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**